## HƏYAT VƏ FƏALİYYƏTİ

Fazil Qəzənfər oğlu Mustafa 1965-ci il oktyabr ayının 15-də Naxçıvan şəhərində anadan olub. 5-ci sinfə qədər 7 saylı orta məktəbdə, sonra 10 saylı orta məktəbdə oxuyub.1982-ci ildə Naxçıvan şəhərindəki 10 saylı orta məktəbi bitirib və həmin ildən 1984-cü ilədək 5 saylı Naxçıvan tikinti trestində fəhlə işləyib.1984-1986-cı illərdə Ukraynada keçmiş SSRİ Silahlı Qüvvələri tərkibində hərbi xidmətdə olub.1986-cı ildə Baki Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olub və 1991-ci ildə həmin ali məktəbi bitirib.

1987-ci ildə Yenidənqurmanı dəstəkləmək adı ilə fəaliyyət göstərən milli hərəkatın ən öncül təşkilatı olan "Çənlibel" birliyinin büro üzvü olub. 1987-ci ildə "Yurd" birliyinin yaradıcılarından biri kimi tələbə hərəkatında aktiv rol alıb. 1989-cu ildə Şimali Azərbaycan Azad Tələbə İttifaqının İdarə Heyətinin sədri seçilib. 1989-cu ildə təsis edilən Azərbaycan Xalq Cəbhəsinin BDU Hüquq Fakultəsində Dayaq Dəstəsinin sədri olub. Eyni zamanda SSRİ Hüquqşünas-Tələbə İttifaqı İdarə Heyətinə üzv seçilib. 1990-cı ildə iki dəfə Azərbaycan SSR Ali Sovetinə AXC-dən deputatlığa namizədliyi irəli sürülüb, seçilməyinə baxmayaraq mövcud hakimiyyət tərəfindən qələbəsi tanınmayıb.

1991–1992-ci illərdə Azərbaycan Xalq Cəbhəsi sədrinin müşaviri, 1992-ci ildə AXC Analitik Mərkəzinin rəhbəri vəzifələrini daşıyıb. 1992–1993-cü illərdə Azərbaycan Respublikası Prezident Aparatı Dövlət-Hüquq şöbəsinin müdiri vəzifəsində çalışıb. 1995–1998-ci illərdə AXCP sədrinin Türkiyə təmsilçisi olub. 2000-ci ildə Azərbaycan Xalq Cəbhəsi Partiyası daxilindəki bölünmə zamanı Mirmahmud Mirəlioğlu liderliyindəki klassiklər qanadında fəaliyyət göstərməyə başlayıb. 1998–2001-ci illərdə AXCP sədrinin siyasi məsələlər üzrə müavini olub.

2001–2003-cü illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində döyüş bölgəsində taqım komandiri vəzifəsində baş leytenant rütbəsi ilə həqiqi hərbi xidmət keçib.

2003-cü ildə Böyük Quruluş Partiyasını təsis edib və ilk qurultayda həmin partiyanın başqanı seçilib. 2006, 2009, 2012, 2016 və 2020-ci illərdə yenidən partiya başqanı seçilib.

2005-ci ildə fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsini alıb.

2005, 2010, 2015, 2020 və 2024-cü illərdə III, IV, V, VI və VII çağırış Milli Məclisə seçkilərdə deputat seçilib.

2008-ci ilin prezident seçkilərində iştirak edib, 89985 seçicinin səsini alaraq 2,43% səslə üçüncü olub.

2009-cu ildə Azərbaycan Hüquqşünaslar Konfederasiyasının İdarə Heyətinin üzvü seçilib.

2016-cı ildə Xüsusi Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü və vitse-prezidenti seçilib.

2024-cü il oktyabrın 8-də Azərbaycan - Şimali Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri seçilib.

Hazırda Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədridir. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Fazil Mustafa Türkiyə və Azərbaycanda nəşr olunmuş 30 kitabın, yüzlərlə elmi, publisistik məqalənin müəllifidir. “Əbülfəz Elçibəy: Tarixdən gələcəyə”, Azərbaycan Türkünün İman Davası”, “Türk kimliyi və Azərbaycan Vətəni”, “Ölümdən sonrakı diriliş”, “”Sümüklərimiz haqqında elegiya”, “Bir türkün münifesti”, “Bu xalqdan o xalqa doğru”, “Azərbaycan türklərinin dini-fəlsəfi dünyagörüşü”, “İkinci Cümhuriyyətin quruluşu”, “Asiyadan sivilizasiyaya” adlı kitabları geniş yayılmışdır.

1998-ci ildən ailəlidir. İki övladı var.

**Silahlı hücuma məruz qalması**

28 mart 2023-cü ildə Sabunçu rayonu Zabrat qəsəbəsində yaşadığı evin qarşısında “Kalaşnikov” avtomat silahından atəş açılaraq sui-qəsd cəhdi edilib.[2][3] Hadisə nəticəsində çiyin nayihəsindən və ayağından güllə yarası alıb.[2]

Millət vəkili silahlı hücumla bağlı açıqlamasında bildirmişdir:

" “Evə qədər sürdüm. Maşını qaraja daxil etmək istəyəndə nə olduğunu başa düşmədim. Pultun düyməsini sıxıb qaraja daxil olmağa hazırlaşırdım. Birdən maşının “podpres”i silkələndi. Çiynimdə dəhşətli ağrı hiss eləyirdim. Ağrılardan sonra bunun atəş zərbəsi olduğunu anladım, çünki atəş səslərini eşitdim. Qapını açıb düşdüm. Darvazaya tərəf bir neçə addım atanda artıq ikinci güllə mənə dəydi. Ayağımdan yaralandım. Evə gedərək tez qapını bağladım."[4] "

Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində terror aktını törətməkdə şübhəli bilinən şəxslər tutularaq istintaqa təhvil verilib. Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Emin Əliyarov, Rəşad Əhmədov, Azər Səricanov, Elşad Əsgərov, Səbuhi Şirinovun barəsində ittiham elan edilib.

2024-cü il avqustun 13-də Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən məhkəmə prosesdə Azər Səricanov ömürlük, Səbuhi Şirinov 20 il, Rəşad Əhmədov 19 il, Elşad Əsgərov 18 il, Emin Əliyarov isə 4 il azadlıqdan məhrum edilib.

Azərbaycan Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Böyük Quruluş Partiyasının başqanı, millət vəkili Dr. Fazil Mustafanın bu il 60 yaşı tamam olur. Millət vəkili 60 illik yubileyi ərəfəsində oxuculara 30-cu kitabını: “Cəhalət gülləsi, aydınlıq çiləsi” adlı kitabını təqdim edib.




Kitab “AVE Print” nəşriyyatında Əkbər Qoşalı və Nərgiz Cabbarlının redaktorluğu ilə çapdan çıxıb. Əsər müəllifin şəxsi həyat hekayəsi ilə yanaşı, bütöv bir xalqın yaddaşında qalan düşüncə və dirəniş mübarizəsinin fəlsəfi salnaməsi kimi təqdim olunur.

***Cəhalətə qarşı mübarizənin manifesti***

**Fazil Mustafa kitabda 2023-cü ilin 28 martında ona qarşı törədilən terror aktını yalnız şəxsinə deyil, cəmiyyətə, dövlətçiliyə və dünyəvi dəyərlərə qarşı yönəlmiş ideoloji təxribat kimi dəyərləndirir.** Əsərdə hadisənin istintaq və məhkəmə mərhələləri, terrorun ideoloji, siyasi və psixoloji kökləri, İran təsiri və cəhalət psixologiyası fəlsəfi-publisistik tərzdə təhlil edilir.

***Müəllif "Sözönü"ndə yazır:***

"Mənim yaşadığım olay bir insanın həyatına yönəlmiş sui-qəsd kimi görünsə də, əslində, bütöv bir toplumun gələcəyinə tuşlanmış güllələrin qara simfoniyası idi… Cəhalət vurmaq, qorxutmaq, susdurmaq istəyir; aydınlıq isə oyatmaq, düşündürmək, diriltmək anlamlarını daşıyır".

***Trilogiyanın son həlqəsi***

Yeni əsər müəllifin bu il çap olunmuş "Azərbaycan: Qaranlıq keçmişdən aydınlıq tarixə" və "Anladım. Tanıdım. Yaşadım" kitabları ilə birlikdə bir trilogiyanın son hissəsini təşkil edir. Bu üç əsər bütövlükdə Fazil Mustafanın fikri təkamülünü, milli düşüncə, vicdan və aydınlıq uğrunda mübarizəsini tamamlayır.

***Kitab həm publisistik ruhu, həm də elmi təhlil dərinliyi ilə seçilir və oxucunu inama gətirir:***

"Cəhalətin gülləsi insana tuşlansa da, aydınlığın çiləsi xalqın düşüncəsini qoruyur".

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının kollektivi və çoxsaylı istifadəçiləri adından xalqımızın dəyərli ziyalısını 60 illik yubileyi münasibətilə təbrik edir, işlərində və fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.